*Üzeyir Hacıbəyli – 130*

# ÜZEYİR BƏYİN MUSİQİ DÜNYASI RƏNGLƏRİN İŞIĞINDA



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Elə sənətkarlar var ki, sağlığında ölməzlik qazanır, gördükləri işlərlə, təmənnasız xidmətləri, işıqlı əməlləri ilə xalqının əzizinə çevrilirlər. Müasir Azərbaycan professional musiqisinin banisi Üzeyir bəy Hacıbəyli (1885-1948) belə xoşbəxt sənətkarlardan olub. Ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə onun bu il anadan olmasının 130 illiyinin qeyd olunması da onun şəxsiyyətinə və xatirəsinə bu vaxta kimi göstərilən ehtiramın davamıdır...

Bəzən ətrafımızda "Əvəzolunmaz insan yoxdur" deyənlər tapılsa da, ancaq milli mənəviyyatımızın təkcə XX əsrin payına düşən ağır yükünü şərəflə daşıyan Bəhruz bəy Kəngərli və Səttar Bəhlulzadənin, Yusif Məmmədəliyev və Azad Mirzəcanzadənin, Səməd Mənsur və Hüseyn Cavidin, Hüseyn Ərəblinski və Ədil İsgəndərovun, eləcə də Vaqif Mustafazadə və Üzeyir bəy Hacıbəylinin həyatda və sənətdə yerinin boşluğu necə də görünəndir.

Taleyinə 63 il yaşamaq yazılmış Üzeyir bəy, bu ömrün ona verdiyi imkanlardan sona qədər istifadə etməklə, başqa sözlə desək, ruhunda gəzdirdiyi missiyasını ləyaqətlə icra edərək, əhatəli və məhsuldar yaradıcılığı ilə özünün və xalqının adını dünya musiqisi tarixində əbədiləşdirmişdir. Bu gün müasir professional musiqimizin banisi kimi onun Azərbaycanda və Şərqdə ilk operanın, ilk musiqili komediyanın (operettanın) müəllifi, Milli Konservatoriyanın qurucusu kimi tanınması yəqin ki, həyatda başlıca missiyası olmuşdur. Bundan əlavə bəstəkar Üzeyir bəyin həm də musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim kimi də fəaliyyəti ölçüyəgəlməz dərəcədə əhəmiyyətli olmuşdur. Bu gün də milli mədəniyyətimizin ənənəyə tapınmaqla inkişafında Üzeyir bəyin bədii irsi əvəzsiz məktəb-qaynaqdır, desək, yanılmarıq.



**Arif Hüseynov**



Sağlığında dahiliyini təsdiqləyən bəstəkarın bütün görünən, bəzən də çox qabarıq görünməyən xidmətləri onun hər bir azərbaycanlının ürəyində "Üzeyir bəy Hacıbəyli abidəsi" ucaldılmasını şərtləndirmişdir. Zamanında xalqının dərin hörmətini qazanan Üzeyir bəyə vəfatından sonra da münasibət dəyişməmiş və ildən-ilə onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində çoxsaylı işlər görülmüşdür. Azərbaycanda yaşayıb-yaradan sənət adamları zaman-zaman öz dahi sələflərinə əsərlər həsr etməklə, ona olan sonsuz sevgilərini bədiiləşdirməyə çalışmışlar. Beləcə son yarım əsrdən çox bir zaman kəsiyində Üzeyir bəy Hacıbəylinin ömür yoluna "bədii işıq" salan yaddaqalan musiqi və ədəbiyyat, təsviri və tətbiqi sənət nümunələri yaradılmışdır. Bu mənada xalq rəssamı, professor Arif Hüseynovun yaratdığı "Üzeyir bəy Hacıbəyli dünyası" tablosunu yeni - XXI əsrdə dahi bəstəkara həsr olunmuş çox maraqlı və dəyərli sənət nümunəsi saymaq olar...

Məlumat üçün bildirək ki, əsər yağlı boya ilə kətan üzərində 90x100 sm ölçüdə işlənmişdir. Kompozisiyanın əsasını dahi bəstəkarın müdrik obrazı, onun həyat və yaradıcılığı ilə bağlı süjetlər, onları tamamlayan detal və atributlar təşkil edir. Başqa sözlə desək, bütün elementlər əsərin adında hifz olunanı - Üzeyir bəy Hacıbəyli dünyasının zənginliyini göstərməyə xidmət edir.

Kompozisiyanın mərkəzi hissəsini bəstəkarın portreti təşkil edir. Bəyaz tağın arasında təsvir olunan Üzeyir bəy doğma yurdu Şuşanın mənzərəsi fonunda görüntüyə gətirilib. Milli musiqimizin rəmzinə çevrilən bəstəkarın düşüncələrə qərq olmuş obrazı rəssam tərəfindən böyük sənətkarlıqla işləndiyindən cəlbedici və yaddaqalandır. Məşhur Gövhər ağa məscidi və qırmızı kirəmitli evlər məcmusu tamaşaçıya "Qafqazın konservatoriyası" kimi məşhurlaşan şəhərin tanınma nişanı olduğundan, görünənlər seyrçilər üçün anlaşılandır. Rəssam tağlı portretin sol və sağında da yaşayış məkanlarının təsvirinə yer vermişdir. Bu mənada rəssam təfsirində bəstəkarın yaradıcılıqla məşğul olduğu Bakının və Abşeronun təqdimatı məntiqli baxılır. Bu qədim yurd yerlərinin qarşısında isə bəstəkarın məşhur əsərlərinin qəhrəmanları görüntüyə gətirilib. Onların arasında "Leyli və Məcnun"un, "O olmasın, bu olsun"un, "Arşın mal alan"ın qəhrəmanlarını tanımaq bir o qədər də çətin deyil. Çoxfiqurlu kompozisiyanı yuxarıdan-səmadan Üzeyir bəyin məşhur musiqi əsərlərinin müxtəlif əlifbalarla yazılmış adları, aşağıdan - yerdən isə "Koroğlu" operasının qəhrəmanlarının obrazları tamamlayır. Portretin əsas və köməkçi detalları arasında uğurlu forma-biçim və rəng əlaqəsi əldə olunduğundan, onun bədii tutumu dahi bəstəkarın musiqi dünyasını tamaşaçıya çatdırmaq gücündədir. Odur ki, xalq rəssamı Arif Hüseynovun bu əsərini Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş bədii salnaməyə layiqli töhfə saymaq olar...